**AZƏRBAYCAN RESPUBLİKASI**

*Əlyazması hüququnda*

# AQROBİZNES MƏHSULLARININ REALLAŞDIRILMASI SİSTEMİNİN TƏKMİLLƏŞDİRİLMƏSİ

İxtisas: 5304.01 – "İqtisadi fəaliyyət növləri"
Elm sahəsi: 53 – İqtisad elmləri

İddiaçı: **Aytən Akif qızı Şükürova**

Fəlsəfə doktoru elmi dərəcəsi
almaq üçün təqdim edilmiş dissertasiyanın
**AVTOREFERATI**

**Bakı – 2023**

Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

Elmi rəhbər: iqtisad elmləri doktoru, professor
**Həmzə Ağakişi oğlu Xəlilov**

Rəsmi opponentlər: iqtisad elmləri doktoru, dosent
**Arzu Nəcəf oğlu Həsənov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Aqil Abid oğlu Qurbanov**

iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**İsmayıl Mahmud oğlu Xeyirxəbərov**

Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universitetinin nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurası

Birgə Dissertasiya şurasının sədri: ____________ AMEA-nın həqiqi üzvü, iqtisad elmləri doktoru, professor
**Ziyad Əliabbas oğlu Səmədzadə**

Birgə Dissertasiya şurasının elmi katibi: ____________ iqtisad elmləri üzrə fəlsəfə doktoru, dosent
**Samirə Yaşar qızı Məmmədova**

Elmi seminarın sədri: ____________ iqtisad elmləri doktoru, professor vəzifəsini icra edən
**Möhübbət Musa oğlu Hüseynov**

# İŞİN ÜMUMİ XARAKTERİSTİKASI

**Mövzunun aktuallığı və işlənmə dərəcəsi.** Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 22 iyul tarixli 3578 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf Strategiyası"nda dayanıqlı və rəqabətli kənd təsərrüfatının və aqrobiznesin inkişaf etdirilməsi əsas fəaliyyət istiqamətlərindən biri kimi müəyyən edilmiş, aqrobiznes sahəsində sahibkarlığın dəyər zənciri üzrə inkişafı və effektiv institusionallaşması istiqamətində tədbirlərin həyata keçirilməsi nəzərdə tutulmuşdur.[1] Bu yönümdə aqrobiznes məhsullarının səmərəli reallaşdırılması fəaliyyətinin təşkilinin innovasiyaların tətbiqi əsasında təkmilləşdirilməsi önəmli yerlərdən birini tutur. Müasir şəraitdə aqrar sahənin inkişafı ilə yanaşı, ölkənin iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsinin, əsas kənd təsərrüfatı və ərzaq məhsulları bazarının inkişafının mühüm şərtlərdən biri kimi məhsulların tədarük zənciri boyunca hərəkətinin səmərəli təşkilinə nail olunmasına zərurət yaranır. Azərbaycan Respublikasının Prezidenti, Müzəffər Ali Baş Komandan cənab İlham Əliyevin rəhbərliyi ilə ordumuzun 44 günlük Vətən müharibəsində zəfər çalması nəticəsində işğaldan azad olunmuş ərazilərdə kənd təsərrüfatının ölkə iqtisadiyyatına reinteqrasiyası şəraitində həmin problemin həlli daha yüksək önəm qazanmış olur. Rəqabət şəraitində kənd təsərrüfatı məhsullarının itkisiz və vaxtında reallaşdırılması istehsalçıların maliyyə dayanıqlığının yüksəldilməsinin mühüm amillərindən biri hesab edilir.

Müasir şəraitdə aqrar sahədə ardıcıl islahatların həyata keçirilməsi, çoxşaxəli dövlət köməyi sisteminin yaradılması sayəsində ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalının dinamik artımı təmin edilməklə yanaşı, həmin məhsulların satışının təkmilləşdirilməsi, bu sferada infrastruktur təminatının yaxşılaşdırılması üzrə də irəliləyişlər baş vermişdir. Eyni zamanda nəzərə almaq lazımdır ki, hal-hazırda ölkəmizdə satış sistemi kənd təsərrüfatı məhsulları ilə istehlakçıların təminatı zəncirinin zəif həlqələrindəndir. Aqrar sferada satış sisteminin

[1] Azərbaycan Respublikasının 2022-2026-cı illərdə sosial-iqtisadi inkişaf strategiyası. https://static.president.az/upload/Files/2022/07/22

mövcud vəziyyəti istehsal olunmuş məhsulların xeyli itkisinə səbəb olur. İstehsal edilən məhsulların saxlanılması və reallaşdırılması sferasına investisiya qoyuluşunun səviyyəsi kifayət qədər yüksək deyil.

Müvafiq dünya təcrübəsinə uyğun olaraq kənd təsərrüfatı məhsullarının reallaşdırılması sferasının istehsal ilə müqayisədə üstün sürətlə inkişaf etdirilməsinə zərurət vardır. Aqrobiznes sferasında məhsulların reallaşdırılması fəaliyyətinin maddi-texniki, təşkilati-iqtisadi şəraitinin, institusional təminatının çağdaş tələblərə tam uyğunlaşdırılmasına ehtiyac qalmaqdadır.

Aqrobiznes məhsullarının reallaşdırılması sahəsində təsərrüfat subyektlərində marketinq potensialının yüksəldilməsi, satış sistemində nəqliyyat-logistik təminatının və satış infrastrukturunun ümumi inkişafı, istehsalçılar və istehlakçılar arasında qarşılıqlı əlaqələrin yaxşılaşdırılması, bazarın vəziyyətinə dair informasiya təminatının təşkilinin təkmilləşdirilməsi ilə bağlı məsələlər sonadək həllini tapmamışdır.

Göstərilənlər nəzərə alınmaqla, aqrobiznes məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsi məsələlərinin tədqiqi elmi və praktiki cəhətdən aktualdır.

Aqrobiznesdə məhsulların reallaşdırılması sisteminin səmərəli təşkili məsələlərinə Azərbaycanda aqrar sahənin aktual iqtisadi problemlərinin, ölkənin iqtisadi və ərzaq təhlükəsizliyinin təmin edilməsinin araşdırılması gedişində ölkə alimlərindən Z.Ə.Səmədzadə, E.A.Quliyev, E.R.İbrahimov, Ş.M.Muradov, İ.H.İbrahimov, Ə.Q.Əlirzayev, H.A.Xəlilov, B.X.Ataşov, M.C.Hüseynov, A.E.Quliyeva, Ə.X.Nuriyev, R.Ə.Balayev, S.V.Salahov, V.T.Novruzov, M.M.Hüseynov, İ.Ş.Qarayev, G.Ə.Gənciyev, V.Ə.Qasımlı, A.F.Abbasov, İ.H.Alıyev, Ə.Ç.Verdiyev tərəfindən baxılmışdır.

Aqrobiznesdə məhsulların satışı sahəsində fəaliyyətin təkmilləşdirilməsi ilə bağlı məsələlər xarici ölkə alimlərindən Q.D.Bolt, İ.A.Avdonina, N.V.Kireyenko, N.M.Şarnina, S.V.Balko, A.İ.Bodak, İ.V.Rısikova, N.Y.Kovalenko, İ.A.Minakov, R.O.Cababov, T.T.Kaskin, A.V.Mixalçuk, İ.S.Voloqin, N.V.Kamençik, Y.D.Romanenko və J.X.Bottayevin əsərlərində tədqiq edilmişdir. Eyni zamanda, göstərilən alimlərin əsərlərində aqrobiznes

məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsi ayrıca tədqiqat predmeti olmamışdır. Bununla yanaşı, aqrobiznes məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsinin nəzəri və praktiki əhəmiyyətli problemlərinin həlli yolları zəruri səviyyədə araşdırılmayıb.

**Tədqiqatın obyekti və predmeti.** Tədqiqatın obeykti kimi Azərbaycan Respublikasının kənd təsərrüfatı məhsullarının istehsalında və reallaşdırılmasında iştirak edən təsərrüfat subyektləri, eləcə də aqrobiznes məhsulları bazarı təşkil edir. Tədqiqat işinin predmeti aqrobiznes məhsullarının reallaşdırılması fəaliyyətinin təşkili və təkmilləşdirilməsinin amilləri və mexanizmlərindən ibarətdir.

**Tədqiqatın məqsəd və vəzifələri.** Tədqiqatın məqsədi aqrobiznes məhsullarının reallaşdırılması fəaliyyətinin təşkili vəziyyətinin sistemli araşdırılması və bu sahədə mövcud mexanizmlərin daha da təkmilləşdirilməsinə yönəldilmiş tövsiyələr hazırlamaqdan ibarətdir. Tədqiqatın məqsədinə uyğun olaraq qarşıya aşağıdakı vəzifələr qoyulmuş və həll edilmişdir:

- aqrobiznes sferası məhsullarının tədarük zəncirində satış fəaliyyətinin mahiyyəti, məzmunu və xüsusiyyətlərinin araşdırılması;
- kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin strukturunun və onun formalaşmasına təsir edən amillərin açıqlanması;
- kənd təsərrüfatı məhsulları bazarının formalaşması və inkişafında əsas meyillərin təhlili;
- aqrobiznes sferasında məhsulların reallaşdırılması sistemində struktur dəyişikliklərin araşdırılması;
- aqrar məhsulların reallaşdılırılmasının institusional mexanizminin təşəkkülü və inkişaf təcrübəsinin təhlil edilməsi və zəruri dəyərləndirmələr aparılması;
- müasir şəraitdə ölkədə aqrobiznes məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsinin əsas istiqamətlərinin müəyyən edilməsi və müvafiq təkliflərin hazırlanması.

**Tədqiqat metodları.** Tədqiqat prosesində sistemli yanaşma, müşahidə, müqayisəli təhlil, ümumiləşdirmə, struktur təhlili, dinamika sıralarının təhlili, ekonometrik təhlil metodlarından istifadə edilmişdir.

**Müdafiəyə çıxarılan əsas müddəalar.**

- aqrobiznesdə sahə xüsusiyyətləri nəzərə alınmaqla məhsulların reallaşdırılması fəaliyyətinin funksiyalarının məzmunu və əlaqələrinin sistemli açıqlanması;
- rəqabət şəraitində aqrar məhsulların reallaşdırlması fəaliyyətinin ümumi və spesifik xüsusiyyətlərinin aşkar edilməsi və onların nəzərə alınması imkanlarının göstərilməsi;
- müasir meyillər nəzərə alınmaqla aqrobiznesdə məhsulların satış kanallarından istifadənin müqayisəli dəyərləndirilməsi;
- aqrar məhsulların reallaşdırılması sisteminin strukturu və formalaşması amillərinin müəyyən edilməsi;
- aqrar məhsullar bazarının marketinq tədqiqinin aparılması və satış fəaliyyətinin optimallaşması imkanlarının dəyərləndirilməsi;
- aqrobiznes məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsi istiqamətlərinin konkretləşdirilməsi;
- kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin təşkilinin təkmilləşdirilməsi əsasında səmərəli satış kanallarının təklif edilməsi;
- aqrar məhsulların reallaşdırılması sisteminin institusional mexanizmlərinin təkmilləşdirilməsi istiqamətlərinin müəyyən edilməsi.

**Tədqiqatın elmi yeniliyi.** Tədqiqatın elmi yeniliyinə aşağıdakılar aiddir:

- kənd təsərrüfatı məhsullarının tədarük zəncirində satış fəaliyyətinin xüsusiyyətləri və səmərəli təşkili şərtləri açıqlanmışdır;
- aqrar məhsulların reallaşdırılması sisteminin funksiyaları, strukturu və onun formalaşması amilləri kompleks tədqiq edilmiş və müvafiq ümumiləşdirmələr aparılmışdır;
- aqrar məshullar bazarının inkişafında müasir meyillər və onları şərtləndirən əsas amillər müəyyən edilmişdir;
- aqrobiznes sferasında mövcud institusional mexanizmin məhsulun reallaşdırılması fəaliyyətinin səmərəli təşkili şərtlərinə uyğunluğu dəyərləndirilmişdir;
- satış strayegiyasının hazırlanması və məhsulların reallaşdırılması kanallarının optimallaşdırılması imkanları açıqlanmışdır;
- aqrobiznes sferasında satış infrastrukturunun modernləşdirilməsinin sürətləndirilməsinə yönəldilən tövsiyələr irəli sürülmüşdür;

- məhsulların reallaşdırılmasının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi istiqamətləri müəyyən edilmişdir.

**Tədqiqatın nəzəri və praktiki əhəmiyyəti.** Tədqiqat işinin nəticəsində hazırlanmış tövsiyələr aqrobiznes məhsullarının reallaşdırılması sisteminin daha da təkmilləşdirilməsinə, satış infrastrukturunun modernləşdirilməsi prosesinin sürətləndirilməsinə, əlverişli satış strategiyasının hazırlanmasına, kənd təsərrüfatı məhsullarının satış fəaliyyətində səmərəli forma və metodların seçilməsinə imkan yaradır.

Tədqiqat əsasında əldə olunmuş nəticələr və irəli sürülən təkliflər iqtisadiyyatın aqrar sektorunun inkişafına dair strategiya sənədlərinin layihələrinin hazırlanmasında, kənd təsərrüfatı məhsullarının reallaşdırılmasının səmərəli kanallarının seçilməsi və onun təşkilinin təkmilləşdirilməsində, habelə ali təhsil müəssisələrində "Aqromarketinq", "Satışın idarə olunması", "Logistika", "Aqrobiznesin əsasları" və digər aidiyyatı kursların tədrisi prosesində istifadə edilə bilər.

**Aprobasiyası və tətbiqi.** Dissertasiya işinin əsas məzmunu müəllifin Ali Attestasiya Komissiyasının tövsiyə etdiyi nüfuzlu yerli və xarici jurnallarda, həmçinin respublika və beynəlxalq səviyyəli konfrans materiallarında nəşr etdirdiyi 13 məqalədə və 14 tezisdə öz əksini tapmışdır. Çap olunmuş elmi əsərlər sırasında "Aqrobiznes məhsullarının reallaşdırılması sistemində struktur dəyişikliklər" – "Kənd təsərrüfatının iqtisadiyyatı" (Bakı-2020), "Aqrar məhsulların reallaşdırılmasının iqtisadi şəraitinin təkmilləşdirilməsi" – "AMEA-nın Xəbərləri, İqtisadiyyat seriyası" (Bakı-2020), "Kənd təsərrüfatı məhsullarının reallaşdırılması kanalları və satış infrastrukturunun modernləşdirilməsinin zəruriliyi" – "ADAU-nun elmi xəbərləri" (Gəncə-2021), "Формирование и разработка сбытовой стратегии товаропроизводителья сельского хозяйство в Азербайджане" – "Московский экономический журнал" (Москва-2021) adlı məqalələri və "İqtisadiyyatın aqrar sektorunda məhsulların reallaşdırılması sisteminin xüsusiyyətləri" – Azərbaycan Universiteti, Gənc tədqiqatçıların II Respublika elmi-praktiki konfransı (Bakı, 15 mart 2019), "Aqrar məhsulların satış sisteminin təşkili və səmərəli kanalları" – AMİU Doktorantların və gənc tədqiqatçıların XXIII

Respublika elmi konfransı (Bakı, 3-4 dekabr 2019), “Kənd təsərrüfatı məhsullarının satış bazarının inkişaf xüsusiyyətləri”. BMU “Gənc tədqiqatçıların VI Beynəlxalq Elmi konfransının materialları (Bakı, 29-30 aprel, 2022), “Эффективные каналы реализации сельскогохозяйственной продукции”. – Международные научно-практические конференции. сб. науч. статей БТЭУ (г. Гомель, 20-21 октябр, 2020), “Формирование и разработка сбытовой стратегии сельскогохозяйственных предприятий” III международные научно-практические конференции сб. науч. Статей БТЭУ (г. Гомель, 31 март, 2021) tezisləri göstərmək olar.

**Dissertasiya işinin yerinə yetirildiyi təşkilatın adı.** Dissertasiya işi Azərbaycan Kooperasiya Universitetində yerinə yetirilmişdir.

**Dissertasiyanın struktur bölmələrinin ayrılıqda həcmi və işarə ilə ümumi həcmi.** Dissertasiya işi giriş, üç fəsil, nəticə bölməsi və 179 mənbə daxil olan ədəbiyyat siyahısından ibarət olmaqla 147 səhifədən ibarətdir. Dissertasiya işində 11 cədvəl, 38 şəkil və qrafik verilmişdir. Giriş – 10632 işarədən, birinci fəsil – 39882 işarədən, ikinci fəsil – 68133 işarədən, üçüncü fəsil – 75499 işarədən, nəticə və təkliflər – 8720 işarədən, istifadə edilmiş ədəbiyyat siyahısı – 28587 işarədən ibarətdir. Dissertasiya işinin ümumi mətn hissəsi cədvəllər, qrafiklər, şəkillər və ədəbiyyat siyahısı istisna olmaqla 202866 işarə təşkil edir.

## TƏDQİQATIN ƏSAS MƏZMUNU

Dissertasiya işinin **giriş** hissəsində mövzusunun aktuallığı əsaslandırılmış, işlənmə dərəcəsi müəyyən edilmiş, tədqiqatın obyekti və predmeti, məqsədi və vəzifələri, metodları, müdafiəyə çıxarılan əsas müddəalar, onun elmi yeniliyi, nəzəri-praktiki əhəmiyyəti və aprobasiyası verilmişdir.

Tədqiqatın **“Aqrobiznes sistemində məhsulların reallaşdırılması fəaliyyətinin təşkilinin nəzəri-metodoloji əsasları”** adlanan birinci fəslində kənd təsərrüfatı məhsullarının tədarük zəncirində satış fəaliyyətinin yeri və rolu araşdırılır, aqrar sahədə istehsal olunan məhsulların reallaşdırılması sisteminin strukturu açıqlanır və onun formalaşmasını şərtləndirən amillər müəyyən edilir.

Kənd təsərrüfatı məhsullarına tələbin yüksəlməsi nəticəsində həmin məhsulların bazarında ehtiyatların artırılmasına və onların səmərəli reallaşdırılması sisteminin təşkilinə tələblər də artır. Bu baxımdan ərzaq təhlükəsizliyinin təmin edilməsində aqrar məhsulların tədarük zəncirində satış fəaliyyətinin etibarlı qurulması mühüm əhəmiyyətə malikdir.

Dissertasiyada sözügedən fəaliyyətə geniş mənada aqrobiznesin tərkib hissəsi kimi baxılır. Bu istiqamətdə müvafiq yanaşmaların təhlili əsasında belə nəticəyə gəlinir ki, aqrobiznes kənd təsərrüfatı məhsullarının istehsalı, saxlanması, emalı, daşınması və son istehlakçıya çatdırılmasını təmin edən sistem kimi xarakterizə edilə bilər.

Daha əhatəli baxış dairəsində kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin inkişafı siyasi (milli ərzaq təhlükəsizliyinin təmin olunması, qida təhlükəsizliyinin təminatı), iqtisadi (istehsalın artımı və keyfiyyətin yüksəldilməsinin təminatı, maliyyə dayanıqlığı), sosial (əhalinin həyat səviyyəsinin yüksəldilməsi, yoxsulluq səviyyəsinin azalması) və ekoloji (təmiz məhsul istehsalı, məhsulların qida və enerji təminatı) vəzifələrin həlli ilə bağlıdır.

Məsələyə iqtisadi baxımdan yanaşaraq aqrobiznes anlayışının həm də aqrar-sənaye sektorunda sahibkarlıq fəaliyyətini özündə əks etdirdiyini demək mümkündür. Aqrar sahədə məhsulların tədarük zəncirində satış fəaliyyətinin səmərəli təşkili istehsalçı-istehlakçı maraqlarının qorunmasına xidmət edir, həmçinin, işgüzar fəaliyyətin inkişafında mühüm rola malik olur.

Müasir şəraitdə ölkələrin aqrar sektoru məhsullarının satış fəaliyyəti bütün ərzaq təminatı zəncirinin mühüm elementinə çevrilmişdir. Kənd təsərrüfatı məhsullarının tədarük zəncirində satış vəsiləsinin əsas funksiyası ikili təbiətə malikdir. İstehsalçı tərəfindən yanaşıldıqda satış məhsulun dəyərini reallaşdırmaqla onun pula çevrilməsini təmin edir. Alıcı tərəfdən yanaşdıqda isə satış prosesi məhsulun əldə edilməsi ilə konkret tələbin ödənilməsinə xidmət gösətərir.

Aqrar məhsulların reallaşdırılması fəaliyyətinin idarə edilməsinin təkmilləşdirilməsi müasir kənd təsərrüfatı məhsulu istehsalçılarının uzunmüddətli və mənfəətli fəaliyyətini təmin edən amil kimi çıxış

edir. Kənd təsərrüfatı məhsullarının tədarük zəncirində satış fəaliyyətinin səmərəliliyi onların kəmiyyət və keyfiyyətcə saxlanmasına, tədavül xərclərinin səviyyəsinə, həmçinin son məhsulun qiymətinə təsir göstərir.

Məhsulların reallaşdırılması fəaliyyətinin mexanizmi ardıcıl olaraq satışın planlaşdırılması, təşkili, nəzarət və əlaqələndirilməsini təmin edir. Həmin mexanizm kənd təsərrüfatı məhsullarının çeşidlənməsi, daşınması, saxlanılması, alıcılarla əlaqə daxil olmaqla onların son istehlakçıya çatdırılmasının təşkilinə yönəlmiş məqsədyönlü metodları özündə təcəssüm etdirir.

Dinamik dəyişən müasir bazar iqtisadiyyatında aqrar məhsulların reallaşdırılması sisteminin funksiyalarının səmərəli həyata keçirilməsi onun adekvat strukturunun formalaşdırılması ilə bağlıdır.

Dissertasiyada aqrar məhsulların reallaşdırılması sisteminin strukturuna dair baxışlar təhlil olunur və həmin məsələyə dair müəllif yanaşması təqdim olunur. Göstərilir ki, kənd təsərrüfatı məhsullarının satış sisteminin strukturunun daha ətraflı açıqlanması baxımından onun funksional və təminedici bloklara ayrılması məqsədəuyğundur. Öz növbəsində sistemin funksional blokunun mürəkkəb struktura malik olması nəzərə alınmaqla, onun elementlərinin bir neçə meyar üzrə təsnifatı aparılmalıdır. İşdə həmin meyarlara sistemin elementlərinin əlaqələrinin xarakteri, təşkilati formaları və institusional səviyyəsi aid edilir və bunların hər biri üzrə müvafiq struktur elementləri ayrılır (şəkil 1).

Sistemin təminat blokuna daxil olan elementlər onun fəaliyyətinin təşkilati, institusional və iqtisadi mexanizmlərini formalaşdırırlar.

Kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin inkişafı gedişində onun strukturunda dəyişiklik baş verir. Bu, həm funksional, həm də təminat blokuna aiddir.

Dissertasiyada kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin strukturunun formalaşmasına təsir göstərən əsas amillər araşdırılmışdır. Müəllifin fikrincə, həmin amillərin sırasına aşağıdakılar aid edilməlidir:

- istehsalçının satışın həyata keçirilməsi üçün maddi, maliyyə və insan resurs imkanları;




**Şəkil 1. Kənd təsərrüfatı məhsullarının rellaşdırılması sisteminin strukturu**
*Mənbə: Müəllif tərəfindən tərtib edilmişdir.*

- nəqliyyat-logistika və satış obyektləri infrastrukturunun inkişaf səviyyəsi;
- bazar rəqabətinin səviyyəsi;
- bazar konyunkturasının dəyişilməsinə uyğunlaşma imkanları;
- satış fəaliyyətinin tənzimlənməsi mexanizmləri.

Rəqabət mübarizəsinin kəskinləşdiyi sahibkarlıq şəraitində aqrobiznes məhsullarının reallaşdırlması sisteminin daha səmərəli təşkili kənd təsərrüfatı məhsul istehsalçılarının iqtisadi vəziyyətinin yaxşılaşdırılmasına müsbət təsir göstərir. Reallaşdırılan əmtəəlik məhsulun həcmi, qiymətin orta səviyyəsi, satışdan əldə edilən gəlir və mənfəətin həcmi və s. kimi maliyyə-iqtisadi göstəricilər aqrobiznes məhsullarının reallaşdırılması sisteminin səmərəli təşkilindən bilavasitə asılıdır.

Dissertasiya işinin **“Aqrobiznes sferasında məhsulların reallaşdırılması sisteminin müasir vəziyyətinin təhlili”** adlı ikinci fəslində ölkəmizdə kənd təsərrüfatı məhsulları bazarının formalaşması və inkişafının əsas meyilləri araşdırılmış, həmin məhsulların reallaşdırılması sistemində struktur dəyişiklikləri və bu sistemin idarə edilməsinin institusional mexanizminin formalaşması istiqamətləri təhlil edilmişdir.

İşdə aqrar məhsullar bazarının həcminə və dinamikasına təsir edən başlıca amillər araşdırılır. Göstərilir ki, bu istiqamətdə həm tələb, həm də təklif əlverişli dinamikaya malik olmuşdur. Ölkəmizdə həyata keçirilən sürətli inkişaf strategiyası çərçivəsində əhali gəlirlərinin də sürətlə yüksəlişi bazarın genişlənməsinə müsbət təsir etmişdir. Bununla yanaşı, kənd təsərrüfatının inkişafına əlverişli şəraitin yaradılması, sahəyə dövlət köməyi sisteminin formalaşdırılması və məhsul ixracının təşviqi daxili və xarici bazarlarda reallaşdırılmaq üçün məhsul istehsalının artırılmasına imkanları yüksəltməklə bazarda təklifi stimullaşdırmışdır.

Tələb və təklif münasibətlərinin əlverişli dinamikası aqrobiznes məhsulları bazarının həcminin ardıcıl artmasını şərtləndirmişdir. Belə hal həm məhsulların daxili bazarı, həm də ixrac həcmi üçün səciyyəvi olmuşdur (şəkil 2).

Şəkil 2-dən göründüyü kimi, ərzaq məhsullarının dövriyyəsi 2005-ci il ilə müqayisədə 2010-cu ildə 1,6, 2015-ci ildə 2,0, 2020-ci ildə 2,2, 2022-ci ildə isə 2,3 dəfədən çox artmışdır. Aqrar-ərzaq məhsullarının

ixracının həcmi baza dövrü ilə müqayisədə 2010-cu ildə 2 dəfəyə yaxın, 2015-ci ildə 2,8 dəfə, 2020-ci ildə 3,1 dəfə və 2022-ci ildə 3,4 dəfə yüksəlmişdir.




| | 2005 | 2010 | 2015 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Ərzaq məhsullarının dövriyyəsi | 1 | 1,58 | 1,95 | 2,03 | 2,08 | 2,15 | 2,22 | 2,28 | 2,33 |
| Aqrar-ərzaq məhsullarının ixracı | 1 | 1,9 | 2,8 | 2,6 | 2,8 | 3 | 3,1 | 3,2 | 3,4 |

**Şəkil 2. Azərbaycan Respublikasında 2005-2022-ci illərdə ərzaq məhsullarının dövriyyəsinin və aqrar-ərzaq məhsullarının ixracının artımı (2005-ci ilə nisbətən, dəfə)**

*Mənbə: Azərbaycanda ticarət – 2023, s. 22, Azərbaycanın xarici ticarəti – 2023, s. 85-87 əsasında müəllif tərəfindən tərtib edilmişdir.*

Dissertasiyada aqrobiznes məhsulları bazarının həcm göstəricisində dəyişikliklər əsas məhsul növləri üzrə təhlil edilmişdir. Göstərilən dəyişikliklər ümumi meylə uyğun olsa da, artım parametrlərində əhəmiyyətli fərqlər müşahidə edilir (şəkil 3).

Tədqiq edilən dövrdə süd və süd məhsulları, ət, yumurta, habelə kartofun satışı üzrə fiziki həcmi nisbətən daha yüksək sürətlə artmışdır. Belə vəziyyət həmin dövrdə tələbin strukturunda baş verən dəyişikliyə uyğun gəlmişdir.

Dissertasiyada göstərilir ki, aqrobiznes məhsullarının satış həcmində əksər məhsullar üzrə artım bazar tələbinin ödənilməsində yerli istehsal üstün rola malik olmuş və nəticədə kənd təsərrüfatı və ərzaq məhsulları ilə özünütəminetmə səviyyəsi yüksəlmişdir. Ölkəmizdə kənd təsərrüfatı məhsulları istehsalı üçün münbit iqtisadi şərait və eyni zamanda istehsalçı qiymətinin əlverişli dinamikası formalaşmışdır. Bitkçilik və heyvandarlıq məhsullarının satışında rentabellik səviyyəsi ümumən yüksək olmuşdur.




***Şəkil 3. 2005-2022-ci illərdə aqrar-ərzaq məhsullarının əsas növlərinin satış həcmi indeksi (2005-ci ilə nisbətən %-lə)***

*Mənbə: Azərbaycanda ticarət – 2023, s. 62. stat.gov.az/trade_2023.zip məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir*

İşdə kənd təsərrüfatı məhsullarının satışı rentabelliyinə təsir edən əsas amillər təhlil edilmişdir. Kənd təsərrüfatı məhsullarının satışının rentabelliyi istehsala və satışa çəkilən xərclər və məhsulun satış qiymətlərinin təsiri ilə formalaşır. Qeyd edilən bu iki amilin birgə təsiri isə ümumi şəkildə reallaşdırılan məhsula məsrəflərin səviyyəsi ilə, bir qədər də dəqiq desək əmttəlik məhsula xərclərin nisbi göstəricisi ilə ifadə olunur.

Sözügedən amilin satışın rentabelliyinə təsiri dissertasiyada müvafiq reqressiya təhlili əsasında araşdırılır. Bu zaman rentabellik səviyyəsinə təsir imkanı nəzərə alınmaqla modelə təsərrüfatın ölçüsü göstəricisinin də daxil olunması məqsədəuyğun hesab edilmişdir. Belə göstərici kimi isə bir təsərrüfata düşən kənd təsərrüfatına yaralı torpaq sahəsinin ölçüsü qəbul olunmuşdur (cədvəl).

Ölkədə fəaliyyət göstərən kənd təsərrüfatı müəssisələrinin 2004-2021-ci illər üzrə müvafiq məlumatları əsasında model aşağıdakı formanı almışdır:

***Cədvəl***

***Kənd təsərrüfatı məhsullarının istehsalı və satışına sərf edilən xərclərin və qiymətlərin satışın rentabelliyinə təsirinin qiymətləndirilməsi modelinin parametrlərinə dair göstəricilər***

| | |
|---|---|
| **Asılı dəyişənlər:**<br>Əmtəəlik məhsula xərcin səviyyəsi<br>Bir müəssisəyə düşən kənd təsərrüaftına yararlı torpaq sahəsi | <br>***-1.05606*** *<br>(0.0657)**<br>***0.005753***<br>(0.00370) |
| **Sərbəst əmsal** | 104.9084<br>(5.926564) |
| **Cəm R –** | 0.980856 |
| **R-kvadrat** | 0.962079 |
| **Normalaşdırılmış  R- kvadrat** | 0.957023 |
| **F statistika** | 190.278 |
| **DW statistikası** | 2.518587 |
| **T –statistika:**<br>**Sərbəst əmsal**<br>**1-ci dəyişən**<br>**2-ci dəyişən** | <br>17.70138<br>-16.074<br>1.554035 |

*(...) əmsalın standart xətaları göstərilmişdir*
** göstəricilərin qiymətləri 99% etibarlıq intervalında qəbul edilir*
*** göstəricilərin qiymətləri 85% etibarlıq intervalında qəbul edilir*

*Mənbə: DSK-nın məlumatları əsasında müəllif tərəfindən hesablanmışdır.*

$$SR = 104.9084 - 1.05606\, XS + 0.005753\, KTTS + e \quad (1)$$

Burada, SR – kənd təsərrüfatı məhsullarının satış rentabelliyi;
XS - bir manatlıq əmtəəlik məhsula xərclərin səviyyəsi, %-lə;
KTTS - bir təsərrüfata düşən kənd təsərrüfatına yararlı torpaq sahəsi, ha;
e – modelin xətası.

Cədvəldə verilmiş nəticələrə əsasən, modelin parametrləri müvafiq test göstəricilərinə görə etibarlıdır.

Modelin sərbəst dəyişənlərindən əmtəəlik (satılan) məhsula xərclər üzrə reqressiya əmsalının kəmiyyəti müvafiq test göstəricilərinə görə

yüksək dərəcədə etibarlı hesab edilə bilər. Həmin göstəricinin qiymətinə uyğun olaraq, xərclərin səviyyəsinin 1% yüksəlməsi satışın rentabelliyinin 1.06% aşağı düşməsinə gətirib çıxarır.

Xərclər səviyyəsi göstəricisinin reqressiya əmaslından fərqli olaraq, kənd təsərrüfatı müəssisəsinin torpaq sahəsi üzrə reqressiya əmaslı müsbət işarəlidir. Bu, müəssisənin ölçüsünün böyüməsinin rentabellik səviyyəsinə müsbət təsir göstərdiyini ifadə edir. Nəzərə almalıyıq ki, həmin əmsalın modeldə əksini tapan qiymətinin etibalılıq dərəcəsi (85% həddində) bir qədər aşağıdır. Bununla belə modeldən təsərrüfatların ölçüsünün böyüməsinin satış rentabelliyinə müsbət təsir göstərdiyi aydın olur. Bu baxımdan hazırkı şəraitdə aqrar sahədə fermer təsərrüfatlarında konsolidasiyanın həyata keçirilməsinə satışın rentabelliyinin yüksəldilməsi potensialına malik olmasını təsdiq etmək mümkündür.

Aqrobiznes sferasında satışın iqtisadi nəticələrinə istehsal olunmuş kənd təsərrüfatı məhsullarının itkisi səviyyəsi də əhəmiyyətli təsir göstərir. Dissertasiyada bu istiqamət üzrə aparılan təhlillər əsas məhsul növləri üzrə itki səviyyəsinin fərqli dinamikaya malik olduğunu göstərir (şəkil 4). Araşdırılan dövrdə itkilərin səviyyəsinin dənlilər, süd və süd məhsulları üzrə demək olar ki, kəskin azalması təmin olunmuşdur. Kartof, habelə meyvə və giləmeyvə məhsulları üzrə də itkilərin səviyyəsi əhəmiyyətli dərəcədə ixtisar olunmuşdur. Bununla belə, tərəvəz, bostan məhsulları və üzüm üzrə itkilər hələlik yüksək səviyyədədir və son dövrlərdə həmin göstəricilərin yaxşılaşdırılması istiqamətində irəliləyişlər olmamışdır.

Dissertasiyada müasir şəraitdə aqrar məhsulların reallaşdırılması sistemində institusional mexanizmlərin təşkilinin istiqamətləri araşdırılır. Göstərilir ki, ölkəmizdə bazar iqtisadiyyatı sisteminin formalaşması gedişində aqrobiznes sferasında məhsulların reallaşdırılması fəaliyyəti ilk növbədə azad sahibkarlıq fəaliyyəti prinsipləri əsasında yenidən qurulmuş, müxtəlif mülkiyyət formalı təsərrüfatçılıq üçün zəruri iqtisadi və təşkilati mühit formalaşdırılmışdır. Bununla yanaşı, məhsulların reallaşdırılmasının müvafiq dövlət tənzimlənməsi mexanizmləri yaradılmışdır. Məhsulların reallaşdırılması sisteminin institusionallaşması gedişində büdcə maliyyələşməsinin səmərələşdirilməsi, güzəştli kreditləşmə




| | 2010 | 2015 | 2016 | 2017 | 2018 | 2019 | 2020 | 2021 | 2022 |
|---|---|---|---|---|---|---|---|---|---|
| Dənlilər | 4,1 | 3,9 | 4,9 | 4,8 | 4,7 | 4,8 | 3,7 | 1,4 | 1,4 |
| Kartof | 4,7 | 3,7 | 3,6 | 3,6 | 3,7 | 3,8 | 3,9 | 3 | 3,4 |
| Bütün növ tərəvəzlər | 5,3 | 5,3 | 5,7 | 5,7 | 5,7 | 5,7 | 5,7 | 5,9 | 5,9 |
| Bostan məhsulları | 6,1 | 6,5 | 6,5 | 5,4 | 6,5 | 6,5 | 6,5 | 6,5 | 6,5 |
| Meyvə və giləmeyvə | 1,7 | 1,4 | 1,4 | 1,4 | 1,4 | 1,4 | 1,4 | 0,8 | 0,8 |
| Üzüm | 1,8 | 2,1 | 2,1 | 2 | 2,1 | 2,1 | 2 | 2,1 | 2,1 |
| Bütün növ ət və ət məhsulları | 0,7 | 0,4 | 0,4 | 0,5 | 0,6 | 0,7 | 0,7 | 0,7 | 0,7 |
| Süd və süd məhsulları | 1,6 | 1,4 | 0,4 | 0,4 | 0,6 | 0,5 | 0,6 | 0,6 | 0,6 |

**Şəkil 4. 2010-2022-ci illərdə aqrobzines sferasında əsas məhsul növləri üzrə itkilərin səviyyəsinin (ehtiyatların həcminə nisbətən faizlə) dəyişilməsi**

*Mənbə: Azərbaycanın ərzaq balansları – 2023, s. 19-44. məlumatları əsasında müəllif tərəfindən tərtib edilmişdir. https://food-balances_2023.pdf*

mexanizmi, qiymət siyasəti, dövlət satınalması, antiinhisar və gömrük tarifi tədbirləri vasitəsilə məhsulların istehsalçıdan - istehlakçıya səmərəli yollarla çatdırılması, reallaşdırılması və xarici bazara hərəkətinin təmin olunması qayda və normaları müəyyən edilmişdir. Ölkədə qəbul olunmuş müvafiq qanunvericilik aktları, o cümlədən Azərbaycan Respublikasının Nazirlər Kabineti tərəfindən təsdiq edilmiş "Ticarət, ictimai iaşə, məişət və digər növ xidmət qaydaları" çərçivəsində aqrar sahə məhsullarının satışının tənzimlənməsi həyata keçirilir. Satış fəaliyyətinin tənzimlənməsi ilə bağlı qaydalar, o cümlədən nəzarət mexanizmləri ardıcıl olaraq təkmilləşdirilmişdir. Bu istiqamətdə 2017-ci ildə yaradılmış Azərbaycan Respublikasının Qida Təhlükəsizliyi Agentliyinin fəaliyyətinin təşkili xüsusi rola malik olmuşdur. Agentlik tabeliyindən və mülkiyyət formasından asılı

olmayaraq hüquqi və fiziki şəxslərin satış, xidmət və saxlama sahələrinə nəzarəti təmin edir.

Aqrobiznes sferasında satış fəaliyyətinin istitusional mexanizmlərinin inkişafının digər istiqamətini həmin fəaliyyətin kooperasiya əsasında həyata keçirilməsinin yeni qanunvericilik bazasının yaradılması təşkil etmişdir. Ölkədə 2016-cı ildə qəbul olunmuş "Kənd təsərrüfatı kooperasiyası haqqında" Azərbaycan Respublikasının Qanununda tədarük və satış (ticarət) kooperativlərinin yaradılması və bunların kənd təsərrüfatı məhsullarının tədarükü, topdan və pərakəndə satışı, habelə satış bazarının öyrənilməsi ilə məşğul olmaları ilə bağlı müddəalar öz əksini tapmışdır. Eyni zamanda Azərbaycan Respublikası Prezidentinin 2017-ci il 14 iyul tarixli 3099 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasında kənd təsərrüfatı kooperasiyasının inkişafına dair 2017-2022-ci illər üçün Dövlət Proqramında kooperativ bazarların fəaliyyəti üçün şərait yaradılması, kooperativlərdən hazır məhsulun qısa müddətdə tədarükünü, daxili və xarici bazara çıxışını təmin edən mexanizmin yaradılması, dövlət ehtiyacları üçün kooperativlərdən kənd təsərrüfatı və ərzaq məhsullarının tədarükünə dair sifarişlərin hər il müəyyənləşdirilməsi və satınalma əməliyyatlarının həyata keçirilməsi nəzərdə tutulmuşdur.

Dissertasiyada göstərilir ki, aqrobiznes fəaliyyəti sferasında institusional inkişafın mühüm istiqamətini bu sferada dövlət satın alınması (tədarükü) mexanizmlərinin formalaşdırılması təşkil etmişdir. Bu yönümdə Azərbaycan Respublikası Prezindentinin 2021-ci il 7 oktyabr tarixli Fərmanı ilə ölkədə strateji əhəmiyyətli mallar üzrə daha effektiv təchizat zəncirinin formaşdırılması və daxili bazarın qorunması məqsədilə yaradılmış Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin və onun nəzdində Dövlət Taxıl Fondunun vasitəsilə məhsulların tədarükü qaydalarının yaradılması ilə bağlı məsələlər həll edilmişdir.

Ölkədə Taxıl Fondunun həcmi Azərbaycan hökuməti tərəfindən müəyyən edilir. Azərbaycan Respublikası Dövlət Ehtiyatları Agentliyinin (DEA) Taxıl Fondu, onun taxıl elevatorları, un dəyirmanları və digər qurumları vasitəsilə məhsul istehalçılarından kontrakt əsasında satınalma yolu ilə formalaşır.

Hal-hazırda ölkəmizdə aqrobiznes məhsullarının satınalması sahəsində Dövlət Taxıl Fondu ilə yanaşı, Azərbaycan Respublikası Prezidentinin 2018-ci il 14 dekabr tarixli 400 nömrəli Fərmanı ilə yaradılmış Kənd Təsərrüfatı Nazirliyinin tabeliyində "Aqrar tədarük və təchizat" Açıq Səhmdar Cəmiyyəti əsas institut kimi çıxış edir. Bu təşkilat büdcə təşkilatlarının verdiyi sifarişlər əsasında kənd təsərrüfatı və ərzaq məhsullarının mərkəzləşdirilmiş qaydada büdcə vəsaiti hesabına satın alınmasını, habelə həmin məhsulların ixracını təşkil edir.

Dissertasiya işinin **"Aqrobiznes sferasında məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsinin əsas istiqamətləri"** adlanan üçüncü fəslində aqromarketinq baxımından məhsul istehsalçılarının səmərəli satış strategiyasının hazırlanması, satış infrastrukturunun modernləşdirilməsi və məhsulların reallaşdırılmasının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi məsələləri tədqiq edilmişdir.

Aqrobiznes məhsullarının satışı fəaliyyətinin perspektiv inkişafı üçün ilkin olaraq kənd təsərrüfatı məhsul istehsalçılarının məhsullara tələbin vəziyyətini və potensial istehlakçıları müəyyən etməyə imkan verən satış strategiyası hazırlanmalıdır.

Müasir şəraitdə səmərəli satış strategiyasının formalaşdırılması kənd təsərrüfatı məhsulları istehsalçılarının yeni bazarlara daxil olması, satış kanallarının optimallaşdırılması, reallaşdırılan məhsulun və mənfəətin həcminin artırılması əsasında təsərrüfat fəaliyyətinin səmərəliliyinin yüksəldilməsinə yol açır.

Dissertasiyada kənd təsərrüfatı məhsullarının satış strategiyasının hazırlanmasında qısa və uzunmüddətli dövrü nəzərə almağın zəruri olduğu göstərilir. Aqrar məhsul istehsalçılarının satış strategiyası ən başlıcası kənd təsərrüfatı məhsulları bazarının həcmi və konyunkturanın müəyyən edilməsi, reallaşdırılan məhsulların mümkün həcminin planlaşdırılması, həmçinin məhsulların istehsalçıdan istehlakçıya optimal hərəkəti, vasitəçilərin seçilməsi və digər proseslər daxil olmaqla fermerlərin öz məhsullarını reallaşdırmasının strateji inkişaf planı kimi hazırlanmalıdır. Bununla yanaşı, qısamüddətli dövr baxımından satış strategiyası aqrar məhsul istehsalçılarının satış potensialından optimal istifadə və bu əsasda məhsulun reallaşdırılmasının səmərəliliyini təmin etməklə istehlakçıların

tələbatının ödənilməsinə yönəldilməlidir. İşdə göstərilir ki, qeyd edilən vəzifələrin uğurla reallaşdırılması məqsədilə strategiyanın əhatə dairəsinə aşağıdakılar daxil edilə bilər:

- mövcud satış infrastrukturunun təkmilləşdirilməsi;
- aqrobiznes məhsullarının reallaşdırılması sistemində işgüzar fəallığın artırılması;
- yeni məhsullarının bazara təklif edilməsi;
- kənd təsərrüfatı məhsullarının reallaşdırılması sistemində məqsədli bazarın və bazara daxilolma vaxtının seçilməsi;
- kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminə təsir vasitələrinin müəyyən edilməsi.
- aqrobiznes məhsullarının reallaşdırılmasının səmərəli kanallarının seçilməsi;
- məhsulların reallaşdırılması sistemində satışın həvəsləndirilməsi forma və metodlarının müəyyən edilməsi.

Dissertasiyada hələ də kənd təsərrüfatı məhsul istehsalçıları üçün universal satış strategiyasının olmadığı vurğulanır. Hər bir fermer təsrrüfatı öz istehsal – satış xüsusiyyətindən asılı olaraq fərdi satış strategiyasına malik olur. Aqrobiznesin satış strategiyasının hazırlanması kənd təsərrüfatı məhsullarının sahədən istehlakçıyadək, başqa sözlə, məhsulların toplanması, saxlanması, daşınması və reallaşdırılmasının səmərəli hərəkətinin təmin edilməsinə yönəlir. Aqrobiznesdə məhsul istehsalçılarının satış siyasəti müəyyən edilmiş strategiyaya uyğun olaraq kommersiya strukturları vasitəsilə həyata keçirilir.

Müasir şəraitdə ölkəmizdə kənd təsərrüfatı məhsul istehsalçılarının ayrı-ayrı məhsul növləri üzrə satış strategiyası ilk növbədə satış kanallarının optimallaşdırılmasına yönəldilməlidir. Məhsulların reallaşdırılması kanalının optimallaşdırılması əsasən mövcud bölgü kanallarının təhlili, optimallaşma üçün zəruri tədbirlərin hazırlanması, proqramın tətbiqi və həyata keçirilməsi mərhələlərindən ibarət olmalıdır.

Səmərəli satış kanllarının təşkili aqrobiznes məhsullarının son istehlakçılara çatdırılması prosesində itkilərin xeyli dərəcədə azalmasına və bütünlükdə ölkənin aqrobiznes sferasında rentabellik səviyyəsinin yüksəldilməsinə imkan açır. İşdə göstərilir ki, müasir

şəraitdə ölkəmizdə aqrar məhsulların reallaşdırılmasının perspektiv kanallarına yerli topdan bazarlar, o cümlədən topdan yarmarka, hərrac və sərgi – satışlarının, onlayn satışının təşkilini aid etmək olar. Aqrar məhsulların istehsalının artım sürətinin yüksəldilməsi ilə əlaqədar yeni satış kanalları axtarmaq problemi də yaranır. Bu problemin həlli üçün, çox da böyük olmayan fərdi sahibkarların təsərrüfatların satış fəaliyyətinə təsir göstərmək məqsədilə ölkəmizdə yarmarka tədbirləri təşkil edilir. Bununla yanaşı, kənd təsərrüfatı məhsullarının reallaşdırılması sistemində struktur dəyişiklikləri şəraitində dövlət ehtiyacları üçün məhsulların tədarükü və satışının müqavilə əsasında iqtisadi stimullaşmasının tətbiqi xüsusi əhəmiyyət kəsb edir.

Müasir şəraitdə, ölkənin aqrobiznes sferasında satış infrastrukturunun inkişafını təmin etmək məhsulların tədarük zəncirində bütün həlqələrin ahəngdar fəaliyyətinin mühüm şərtlərindən biri kimi çıxış edir. Dissertasiyada ölkəmizin aqrobiznes sistemində satış infrastrukturunun ümumi vəziyyəti təhlil edilir. Müvafiq dünya təcrübəsində müşahidə edilən meyillər nəzərə alınmaqla məhsulların reallaşdırılması üzrə infrastrukturun formalaşdırılması və inkişafı sahəsində qarşıda duran vəzifələr açıqlanır. Bu yönümdə aqrar məhsulların satış infrastrukturunun modernləşdirilməsinin aşağıdakı prioritet istiqamətləri ayrılır:

- satış infrastrukturunun mövcud maddi-texniki bazasının (soyuducu, ümumi təyinatlı anbarlar, meyvə-tərəvəz bazaları və digər topdan-anbar təsərrüfatı) modernləşdirilməsi;
- məhsulların reallaşdırılması sistemində müasir texnologiyalar əsasında fəaliyyət göstərən logistik - nəqliyyat - ekspedisiya xidmətinin, ticarət-anbar və satış prosesinin təşkili;
- rəqəmsal transformasiyalar əsasında elektron satış infrastrukturunun genişləndirilməsi;
- aqrar məhsulların xarici bazara çıxarılması üçün soyuducu qurğularla təmin edilmiş avtomobil-refrijeratorlar parkının yaradılması və təkmilləşdirilməsi;
- modern tipli çeşidləmə-qablaşdırma bölməsi və anbarların yaradılması;
- müasir, orqanik tara və qablaşdırma vasitələrinin alınması, istehsalı və geniş tətbiqi.

Dissertasiyada müasir şəraitdə aqrobiznesdə məhsulların reallaşdırılmasının təşkilati-iqtisadi mexanizminin təkmilləşdirilməsi yolları araşdırılır. Bu istiqamətdə həll edilməli olan məsələlər açıqlanır. Modern tədarük zəncirinə keçid şəraitində öncül əhəmiyyəti nəzərə alınmaqla, kənd təsərrüfatı məhsullarının satış sistemində müqavilə münasibətlərinin yaxşılaşdırılması imkanları dəyərləndirilir. Göstərilir ki, ilk növbədə alqı-satqı üzrə bağlanan müqavilələrdə fermerlər üçün əlverişli olmayan şərtlərin müəyyən edilməsi hallarının qarşısı alınmalıdır. Buna etibarlı təminat yaradılması məqsədilə müvafiq sahədə bir sıra xarici ölkələrin təcrübəsinə uyğun olaraq, ayrı-ayrı kənd təsərrüfatı məhsullarının alqı-satqısı üzrə müqavilələrdə təsbit edilməli olan məsələlərin və onların nizamlanmasının konkret qaydalarının qanunvericilikdə əks olunması məqsədəuyğun hesab edilir. Kənd təsərrüfatı məhsullarının tədarükü üzrə bağlanılan müqavilələr son nəticədə fermerlərə qarşı haqsız ticarət davranışlarının qarşısının alınmasına, istehsalçıların mənafelərinin qorunmasına təminatlar formalaşdırılır.

## NƏTİCƏ

Dissersiyanın **nəticə** bölməsində işdə aparılmış tədqiqatlar ümumiləşdirilir və müvafiq tövsiyələr irəli sürülür:

1. Müasir şəraitdə aqrobiznes məhsullarının reallaşdırması sisteminin təkmilləşdirilməsi istehsal olunan məhsulların istehlakçıya effektiv çatdırılması və həm də son istehlakçıda real tələbin formalaşdırmasına təsiri baxımından önəmlidir. Bununla yanaşı, əlverişli satış sisteminin formalaşması məhsulun reallaşdırılmasına sərf edilən əməyin və maddi resursların səmərəsinin yüksəldilməsi amili kimi çıxış edir. Ölkədə aqrobiznes məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsi qida məhsulları ehtiyatlarının artırılması və ərzaq təhlükəsizliyin təminatında mühüm rola malikdir. Aqrobiznes məhsullarının reallaşdırılması sistemi ölkəmizdə iqtisadiyyat sahəsində vacib fəaliyyət növlərindən biri kimi dinamik inkişaf etməlidir.

2. Ölkəmizdə uzunmüddətli sürətli inkişaf strategiyasının reallaşdırılması ilə bağlı aqrobiznes məhsullarına tələbin yüksəlməsi şəraitində həmin məhsulların bazarının həcmi ardıcıl genişlənmiş və

strukturunda əhəmiyyətli dəyişikliklər baş vermişdir. Buna uyğun sürətdə kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin formalaşması və inkişafında irəliləyişlər olmuşdur:

Birincisi, aqrobiznes sferasında məhsulların reallaşdırılmasının çağdaş tələblərə uyğun infrastrukturların formalaşdırılmasına başlanılmışdır. Bu istiqamətdə müvafiq kəmiyyət genişlənmələri keyfiyyət dəyişiklikləri ilə müşayiət olunmuşdur.

İkincisi, dövlət müstəqilliyi şəraitində həyata keçirilmiş əsaslı islahatların nəticəsi olaraq ölkəmizdə məhsul istehsalçılarının hüquq və səlahiyyətləri genişləndirilmiş, onlara istehsalın və reallaşdırmanın istiqaməti, strukturu, həcmi və xarici bazara çıxışı da daxil olmaqla satış kanallarını sərbəst seçmək, həmçinin əldə etdikləri vəsaitlərdən müstəqil istifadə etmək imkanları verilmişdir. Müxtəlif satış kanalları – xüsusilə bazarlar, pərakəndə ticarət şəbəkəsi, ictimai iaşə müəssisələri, digər kommersiya strukturları vasitəsilə reallaşdırılmasının artımı meyli yaranmışdır. Tarixi zəfər nəticəsində işğaldan azad edilmiş ərazilərin malik olduğu potensialın ölkəmizin ümumi iqtisadiyyatına reinteqrasiyası aqrar sferada istehsalın və onun məhsullarının reallaşdırılmasının daha güclü inkişafına imkan açır.

Üçüncüsü, aqrobiznes məhsullarının reallaşdırılması sisteminin yeni institusional strukturu formalaşdırılmış, bazar iqtisadiyyatına adekvat fəaliyyət mexanizmləri yaradılmışdır. Baş vermiş irəliləyişlər sistemdə məhsulların istehsalçılardan istehlakçılara effektiv hərəkətinin təmin edilməsinə, istehsal və satış vasitələrinin rentabelli fəaliyyətinə şərait yaradılmasına yönəldilmişdir.

Eyni zamanda müasir şəraitdə aqrobiznes məhsullarının tədarük zəncirində satış vəsiləsinin inkişafı ilə bağlı məsələlərin ardıcıl həllinə, bu sahədə islahatların dərinləşdirilməsinə və istehsal olunmuş məshulların itkilərinin daha da azaldılmasına, reallaşdırma prosesində iştirak edən tərəfdaşların mənafelərinin səmərəli uzlaşdırılmasına ehtiyac vardır.

3. Aqrar məhsulların reallaşdırılması sisteminin zəruri səviyyədə inkişaf etməməsi tədarük, daşınma, saxlanma və emal prosesində itkilərin xeyli artmasına səbəb olur. Kənd təsərrüfatının mövsümü xarakter daşıması və məhsulların əsasən tezxarabolma xüsusiyyətləri onların reallaşdırılması prosesinin sürətləndirilməsini və satış

sisteminin təşkilinin təkmilləşdirilməsinə tələbləri artırır. Kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin təkmilləşdirilməsi reallaşdırılan məhsulların zəruri keyfiyyət göstəricilərinin saxlanılması üçün optimal şərait yaranmasına, alıcı tələbinin səmərəli ödənilməsinə, satışın səmərəliliyin yüksəldilməsinə yönəlməlidir.

4. Kənd təsərrüfatı məhsullarının reallaşdırılması sisteminin inkişafı baxımından istehsalçı subyektlər səviyyəsində məhsulların reallaşdırılmasının təşkilinin təkmilləşdirilməsi, satış strategiyasının hazırlanması və satış kanallarının optimallaşdırılması, aqromarketinq fəaliyyətinin və kənd təsərrüfatı kooperasiyasının inkişafı məsələləri diqqət mərkəzində olmalıdır. Dövlət səviyyəsində isə məhsulların istehsalçılarının bilavasitə güzəştli kreditləşməsinin daha da yaxşılaşdırılması, bəzi hallarda dotasiya və kompensasiya formasında məqsədli maliyyələşmə, dövlət ehtiyacları üçün satınalmanın genişləndirilməsi, qiymətin tənzimlənməsi, vergi mexanizminin təkmilləşdirilməsi istiqamətində tədbirlərin həyata keçirilməsi önəmlilik qazanır.

5. Müasir mərhələdə aqrobiznes məhsullarının reallaşdırılması sisteminin inkişafının əsas istiqamətlərindən birini satış infrastrukturunun genişləndirilməsi və modernləşdirilməsi təşkil edir. Bu istiqamətdə ilk növbədə iri şəhərlərdə topdansatış bazarlarının yaradılmasının davam etdirilməsinə ehtiyac saxlanılır. Aqrobiznes məhsullarının reallaşdırılmasının mövcud sistemindəki ölkənin iri şəhərlərində Topdan Bölüşdürücü Mərkəzlər şəbəkəsinin genişləndirilməsi zəruridir. Bu, aqrar məhsulların tədarükü, saxlanması, emalı və reallaşdırılması sisteminin səmərəliliyinin yüksəlmə, ölkədə yerli rəqabətqabiliyyətli məhsul istehsalını artırmaq və əhalini yüksək keyfiyyətli kənd təsərrüfatı məhsulları və ərzaqla təmin etmək imkanlarını genişləndirə bilər. Müasir şəraitdə regionlarda modern tipli logistika mərkəzlərinin təşkili, kənd təsərrüfatı məhsulların üçün saxlama anbarlarının yaradılması, habelə kənd təsərrüfatı təyinatlı taraların istehsalına üstünlük verilməsinin təmin edilməsi məqsədəuyğun hesab edilir. Eyni zamanda bu istiqamətdə irəliləyişlərin sürətləndirilməsi məqsədilə kənd təsərrüfatı məhsulları bazarının – tələb, təklif, qiymət, rəqabət və s. elementlərin öyrənilməsini həyata keçirən marketinq xidmətinin təşkili zururidir.

6. Qarşıdakı dövrdə aqrobiznes məhsullarının yerli və qlobal (xarici) tədarük zəncirlərinə effektiv inteqrasiyasınım təmin edilməsində rəqəmsal texnologiyalardan istifadənin rolunun yüksəldilməsi ön plana keçirilməlidir. Bununla bağlı rəqəmsal infrastruktur obyektlərinin genişləndirilməsi və müvafiq dünya təcrübəsi nəzərə alınmaqla bunların faəliyyətlərinin əhatə dairəsinin artırılmasına ehtiyac güclənəcəkdir.

7. Aqrobiznes məhsullarının satış infrastrukturunun prioritet istiqamətlər üzrə inkişafına təminat yaradılması baxımından müvafiq yönümdə dövlət dəstəyi alətlərindən aktiv istifadə vacibdir. İlk növbədə satış infrastrukturu obyektlərinin yaradılmasının güzəştli şərtlərlə kreditləşdirilməsi genişləndirilməlidir. Bununla yanaşı, üstün əhəmiyyətli infrastruktur obyektlərinin tikilməsinə yönəldilən investisiyalara təşviq verilməsi məqsədəuyğundur. Bu zaman Azərbaycan Respublikası Prezidentinin 2022-ci il 16 noyabr tarixli 3587 nömrəli Sərəncamı ilə təsdiq edilmiş "Azərbaycan Respublikasının işğaldan azad edilmiş ərazilərinə Böyük Qayıdışa dair I Dövlət Proqramı" ilə yaradılması nəzərdə tutulmuş kənd təsərrüfatı məhsullarının satış infrastruktur obyektlərinə investisiya qoyuluşları üçün nisbətən daha əlverişli təşviq şərtlərinin müəyyən edilməsi zəruridir.

8. Aqrar məhsulların dövlət ehtiyacları üçün satınalınması mexanizmləri təkmilləşdirilməlidir. Bu istiqamətdə məhsul tədarükünün həyata keçirilməsi ilə bağlı müsabiqə və kontraktların şərtləri dövlətin maliyyə resursları məsrəflərinin səmərəliliyinin yüksəldilməsini təmin etməyə, satınalmalarda şəffaflığın artırılmasına, dövlət sifarişi almaq üçün malgöndərənlərin rəqabətinə imkan verməlidir.

9. Aqrobiznes məhsulları bazarının tənzimlənməsi üzrə uzunmüddətli strategiyada nəzərdə tutulan tədbirlərin həyata keçirilməsi şəraitində sərbəst formalaşan qiymətlər təminatlı qiymətlərlə əlaqələndirilməli olacaqdır. Bu zaman kənd təsərrüfatı məhsullarının konkret növləri üzrə reallaşdırılma qiymətlərinin bazar təhriflərinin qarşısının alınması tələblərinə uyğun formalaşdırılması təmin olunmalıdır.

10. Aqrar məhsulların reallaşdırılması sistemində məhsulun saxlanma müddətinin məhdudluğu və daşınma prosesinin mürəkkəbliyi ilə əlaqədar olaraq onların səmərəli reallaşdırılmasını sürətləndirmək üçün daha qısa vasitəli – vasitəsiz reallaşdırma kanallarının formalaşmasına yönəldilən inkişaf stratrgiyasının seçilməsi vacib əhəmiyyət kəsb edir.

11. Aqrobiznes məhsullarının səmərəli reallaşdırılmasına təminat yaradılması baxımından fermerlərə satış strategiyalarının hazırlanması və həyata keçirilməsinə texniki dəstək göstərilməsi məqsədəuyğundur. Aqrar istehsalçıların reallaşma kanallarının düzgün seçilməsinə və məhsulun son istehlakçılara hərəkətinin effektiv təşkilinə yönəldilən satış siyasətinin formalaşdırılması yönümündə zəruri bilik və vərdişlərə yiyələnmələrinə şərait yaradılmalıdır.

12. Aqrobiznes məhsullarının reallaşdırılması sisteminin inkişafı gedişində məhsulların tədarük zənciri boyunca müqavilə münasibətlərinin təkmilləşdirilməsinin rolu yüksəlir. Hazırki şəraitdə tədarük zəncirinin kənd təsərrüfatından sonrakı həlqələrində fəaliyyət göstərən təsərrüfat subyektkləri tərəfindən fermerlərə qarşı haqsız ticarət davranışlarının qarşısının alınması məqsədilə inkişaf etmiş ölkələrin müvafiq təcrübəsi nəzərə alınmaqla aqrobiznes məhsullarının alqı-satqı müqavilələrinin müəyyən şərtlərinin tənzimlənməsi ilə bağlı mülki qanunvericilikdə dəyişikliklərin aparılması məqsədəuyğundur.

Dissertasiya işinin mövzusu ilə bağlı Azərbaycan Respublikası Prezidenti yanında Ali Attestasiya Komissiyasının müəyyən etdiyi aşağıdakı elmi jurnallarda məqalələr çap olunmuş, beynəlxalq və respublika əhəmiyyətli elmi konfrans materiallarında tezislər nəşr edilmişdir:

1. Şükürova, A.A. Aqrar sferada məhsulların reallaşdırılması kanallarının qarşılıqlı əlaqəsi. // – Bakı: Tikinti iqtisadiyyatı və menecment, – 2019. № 2 (7), – s. 166-175.

2. Şükürova, A.A. Azərbaycanda ərzaq məhsulları bazarının formalaşması və inkişafının əsas meylləri. // – Bakı: Statistika xəbərləri, – 2019. № 4, – s. 37-46.

3. Şükürova, A.A. Aqrar məhsulların reallaşdırılması sisteminin strukturu və onun formalaşması amilləri. // – Bakı: Maliyyə və uçot, – 2019. № 7, – s. 39-51.

4. Şükürova, A.A. İqtisadiyyatın aqrar sektorunda məhsulların reallaşdırılması sisteminin xüsusiyyətləri. // Gənc tədqiqatçıların II Respublika Elmi-praktiki konfransının materialları, – Bakı: AU, – 2019. – 15 mart, – s. 397-400.

5. Şükürova, A.A. Kənd təsərrüfatı kooperasiyasının formalaşması və aqrar iqtisadiyyatda onun rolu. // Azərbaycanda aqrar sığortanın tətbiqi: problemlər və imkanlar. Respublika elmi-praktiki konfransının materialları. – Gəncə: – ADAU, – 2019. – 15 mart, – s. 54-59.

6. Şükürova, A.A. Aqrar sahədə səmərəliliyin yüksəldilməsində satış infrastrukturunun rolu. // Şaxələndirilmiş iqtisadiyyatın infrastruktur təminatı: əsas meyllər və inkişaf istiqamətləri, Beynəlxalq elmi konfransının materialları. – Bakı: AMİU, – 2019. – 23-24 may, – s. 121-126.

7. Şükürova, A.A. Aqrar məhsulların satış sisteminin təşkili və səmərəli kanalları. // Doktorantların və gənc tədqiqatçıların XXIII Respublikasə elmi konfransının materialları, – Bakı: AMİU, I cild, – 2019. 3-4 dekabr, – s. 373-375.

8. Şükürova, A.A. Marketinq sistemində aqrar məhsullar bazarının formalaşması və satış siyasəti. // "Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar. Respublika elmi konfransının materialları. – Mingəçevir: MDU, - 2019. 6-7 dekabr, – s. 420-423.

9. Şükürova, A.A. Aqrar məhsulların reallaşdırılması sisteminin institusional mexanizminin formalaşması istiqamətləri. // "Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya". I Beynəlxalq elmi-praktiki konfransın materialları, – Bakı: AzTU, – II hissə, – 2019. 18 – 20 dekabr, – s. 206-210.

10. Şükürova, A.A. Aqrar məhsulların satış infrastruktrunun modernləşdirilməsi. // "Azərbaycanın iqtisadi inkişaf strategiyası". Respublika elmi konfransının materialları. (2 cilddə), I cild Bakı: ADİU, UNEC – 2019. – 24 dekabr, – s. 82-87.

11. Şükürova, A.A. Marketinq sistemində aqrar məhsullar bazarının formalaşması və satış siyasəti. // Şəxsiyyət, cəmiyyət, dövlət: qarşılıqlı münasibətlərə müasir yanaşmalar. Respublika elmi

konfransının materialları. – Mingəçevir: MDU. 6-7 dekabr 2019, – s. 420-423

12. Şükürova A.A. Aqrar məhsulların reallaşdırılması sisteminin institusuonal mexanizminin formalaşması istiqamətləri. // Azərbaycan və Türkiyə Universitetləri: təhsil, elm, texnologiya” I Beynəlxalq elmi-praktiki konfransın materialları. II hissə. – Bakı: AzTU.18-20 dekabr 2019, – s. 206-210

13. Шукюрова, А.А. Роль сельскохозяйственной кооперации в развитии агробизнеса. // Труды Международно научно-практи ческой коиференции. «Эффектность сферы товарного обрашения и труда». [Электронный ресурс]: – Гомел: БТЭУ, – 27-28 сентябрь, – 2019, – с. 90-93. Электрон, опт диск (CD-R)- загл-с экран. İSBN 978-9 85-540-518-5. БТЭУ, 26-27 сентябрь 2019, с. 90-93.

14. Şükürova, A.A. Kənd təsərrüfatı infrastrukturunun rəqəmsal transformasiyası // – Bakı: Azərbaycan aqrar elmi. – 2020. № 1, – s. 129-134.

15. Şükürova, A.A. Aqrobiznes məhsullarının reallaşdırılması sistemində struktur dəyişikliklər. // - Bakı: Kənd təsərrüfatının iqtisadiyyatı, – 2020. № 2, – s. 67-89.

16. Şükürova, A.A. Aqrobiznes sferasında məhsulların reallaşdırılması fəaliyyətinin yeri və rolu. // – Bakı: “Kooperasiya”, – 2020. № 2, – s. 78-86.

17. Şükürova, A.A. Aqrar məhsulların reallaşdırılmasının iqtisadi şəraitinin təkmilləşdirilməsi. // – Bakı: AMEA-nın xəbərləri, İqtisadiyyat seriyası. – 2020, № 3, – s. 86-92.

18. Аташов, Б.Х., Шукюрова, А.А. Эффективные системы и проблемы реализации сельскохозяйственной продукции в Азербайджане // – Москва: Фундаментальные и прикладные исследования кооперативного сектора экономики, – М.: 2020, № 4, – с. 112-119.

19. Шукюрова, А.А. “Эффективные каналы реализации сельскохозяственной продукции. // Сборник научных статьей международного научного практического конференции. Эффективность сферы товарного обрашения и труда // – г. Гомель, БТЭУ – 20-21 октябрь – 2020, – с. 158-162.

20. Шукюрова, А.А., Формироание и совершенствование системы реализации продукции агробизнеса // – Москва: Экономика и предпринимататетельство. ЭП, – 2020. - № 9 (122), – с. 1340-1345.

21. Şükürova, A.A. Kənd təsərrüfatı məhsullarının reallaşdırılması kanalları və satış infrastrukturunun modernləşdirilməsinin zəruriliyi. // – Gəncə: Azərbaycan Dövlət Aqrar Universitetinin elmi əsərləri, – 2021, № 2, – s. 59-63.

22. Шукюрова, А.А. Направление разработка сбытовой стратегии товаропроизводителья сельского хозяйства в Азербайджане. // – Москва: Московский экономический журнал, – 2021, № 3, https://qje.su/ekonomicheskaya-teoriya/moskovskiy-ekonomicheskiy-zhurnal-3-2021-19/

23. Шукюрова, А.А. Формирование и разработки сбытовой стратегии сельскогохозяйственных предприятий // Экономико – правовые перспективы развития общества государства и потребительской кооперации: [Электронный ресурс] : / Сборник научных статьей III международной научно-проактической интернет-конференции. – Гомель: БТЭУ, 31 март, – 2021, – с. 240-244. Научно. электрон. текст изд. 1 электронный, опт диск (CD-R)- загл-с экран.

24. Şükürova, A.A. İşğaldan azad olunmuş Qarabağ regionunda kiçik aqrobiznesin inkişaf istiqamətləri // Qlobal iqtisadi çağırışlar: Azərbaycanın işğaldan azad olunmuş ərazilərin sosial-iqtisadi inkişafının əsas istiqamətləri. Beynəlxalq elmi-praktiki konfransın materialları. – Bakı: BBU, – 2021. – 06 may, – s. 346-350.

25. Şükürova, A.A. Zəngəzur nəqliyyat-logistika dəhlizinin bərpasının Azərbaycanın kənd təsərrüfatının iqtisadi inkişafında rolu // “Davamlı inkişaf strategiyası: qlobal trendlər, milli təcrübələr və yeni hədəflər”. Beynəlxalq elmi konfransın materialları. – Mingəçevir: MDU, 2021. – 10-11 dekabr.

26. Шукурова А.А. Формирование и разработки сбытовой стратегии сельскохозяйственных предприятий // Экономико-правовые перспективы развития общества, государства и потребительской кооперации. III Международной научно-практической интернет-конференции. Сборник научных статей. г. Гомель. БТЭУ. 31 mart 2021, – s. 240-244

27. Şükürova A.A. Kənd təsərrüfatı məhsullarının satış bazarının inkişaf xüsusiyyətləri. // Gənc tədqiqatçıların VI Beynəlxalq Elmi konfransının materialları, – Bakı: BMU. 29-30 aprel 2022, – s. 291-293.



Dissertasiyanın müdafiəsi 2023-cü il 11 oktyabr tarixində saat $16^{00}$-da Azərbaycan Respublikasının Prezidenti yanında Ali Attestasiya Komissiyasının Azərbaycan Kooperasiya Universiteti nəzdində fəaliyyət göstərən Azərbaycan Kooperasiya Universiteti və Bakı Biznes Universitetinin ED 2.46 Birgə Dissertasiya şurasının iclasında keçiriləcək.

Ünvan: AZ1106, Azərbaycan Respublikası, Bakı şəhəri, Nəcəf Nərimanov küçəsi, 93.

Dissertasiya ilə Azərbaycan Kooperasiya Universitetinin kitabxanasında tanış olmaq mümkündür.

Avtoreferatın elektron versiyası Azərbaycan Kooperasiya Universitetinin rəsmi internet saytında (www.aku.edu.az) yerləşdirilmişdir.

Avtoreferat 2023-cü il 08 oktyabr tarixində zəruri ünvanlara göndərilmişdir.

Çapa imzalanıb: 07.09.2023

Kağızın formatı: 60x84

Həcm: 40806 işarə

Tiraj: 100 ədəd